Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Milli şüurlu gənclik Vətən müharibəsinin taleyində həlledici rol oynadı...

**Azərbaycanda həyata keçirilən düşünülmüş gənclər siyasəti, gənclərin vətəpərvər ruhda tərbiyə edilməsi 44 günlük müharibədə öz nəticəsini verdi. Vətən müharibəsində qələbə qazanmağımızda son 17 ildə vətənpərvər ruhda böyüdülən gənclər başlıca rol oynadı.**

Əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü, vətənpərvər yeni nəsil yetişib.

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kurs bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Bu siyasət nəticəsində gənclərimiz dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşıblar.

**Vətənpərvər, milli ruhlu gənclər torpaqlarımızı işğaldan azad etdilər**

Gənc nəslin vətəpərvərlik ruhunda tərbiyə edilməsi hər zaman ölkəmizdə gənclər siyasətinin təməl prinsiplərindən biri olub. Dövlətimizin bu istiqamətdə bugünə qədər apardığı işlər olduqca müsbət nəticələr verib. Bu gün gənclərimizin vətənpərvərlik hissi arzu olunan səviyyədədir. İstər Aprel döyüşlərində, istərsə də Tovuz istiqamətində gedən döyüşlər zamanı biz cəmiyyətimizin, xüsusilə də gənclərimizin və hərbçilərimizin vətənpərvərlik hissinin nə qədər yüksək olduğunun bir daha şahidi olduq.

Məhz cənab Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə yetişən vətənpərvər gənclər torpaqlarımızın işğaldan azad edilməsinə başlıca rol oynadı. Bu döyüşlər zamanı gənclərimizin göstərdiyi yüksək vətənpərvərlik nümunələri bütün Azərbaycan xalqını çox qürurlandırdı, gənclər siyasətinin nə qədər düzgün qurulmasını və həyata keçirilməsini aydın şəkildə göstərdi.

Azərbaycan gəncliyinin triumfu 44 günlük Vətən müharibəsi zamanı özünü göstərdi. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımızın otuz illik torpaq həsrətinə son qoydu. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər ərzində yetişən vətənpərvər, milli ruhlu gənclər torpaqlarımızı işğaldan azad etdilər. Müzəffər Ali Baş Komandanımızın da ifadə etdiyi kimi, hərbi qələbəmizi şərtləndirən ən böyük qüvvə gənclərimiz olub. Həmçinin, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.



**"Əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər"**

Prezidenti İlham Əliyev Şuşada - Cıdır düzündə xalqa müraciət edərkən deyib:

"Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi".

Vaxtilə mərhum prezident Heydər Əliyev İlham Əliyevin ümumilikdə xarakterini, potensialını, böyük qabiliyyət və bacarıqlarını ifadə edərək: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" demişdi.

Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, etibarlı bünövrə olub. Ötən müddət ərzində Azərbaycan regionun aparıcı dövləti olaraq strateji məsələlərin həllində müstəqil və prinsipial mövqe nümayiş etdirərək enerji təhlükəsizliyi sahəsində dünya birliyinin vacib tərəfdaşına çevrilib. Sosial-iqtisadi, ictimai-siyasi və humanitar sahələri əhatə edən çoxsaylı dövlət proqramları uğurla həyata keçirilmiş, ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsas dayaqları daha da möhkəmlənib.

Bu gün ölkəmizin döyünən ürəyi olan gənclər ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunur. Eyni zamanda gənclərimiz də Cənab Prezidentə, Dövlətə, Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqəti ilə öz bağlılıqlarını isbat edirlər.

Əziz gənclər! Azərbaycan xalqı hazırda tarixinin ən şərəfli dövrünü yaşayır. Azad edilmiş torpaqlarımızın yenidən bərpası, abadlıq- quruculuq işləri möhtərəm Prezidentimizin rəhbərliyi ilə ən yüksək səviyyədə aparılır. Ərazi bütövlüyünü təmin etmiş dövlətimizdə qarşımızda duran mühüm vəzifələrimiz vardır. Əminik ki, bu yolda da birlik nümayiş etdirərək bütün bilik və savadınızı, gücünüzü səfərbər edərək "Dəmir yumruğ"un daim müvəffəq olması üçün əlinizdən gələni edəcəksiniz.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**